# Prezident İlham Əliyevin liderliyi: regionu yeni müharibələrdən qurtaran qətiyyət

**Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona tarixi səfəri yalnız diplomatik uğur deyil, həm də beynəlxalq siyasi balansda mühüm dönüş nöqtəsi oldu. Bu səfər bir daha göstərdi ki, regionun gələcəyi Bakıdan başlayır, qərarlar isə Prezident İlham Əliyev səviyyəsində verilir. Vaşinqtonda keçirilən görüşlər zamanı Prezident İlham Əliyevin nümayiş etdirdiyi prinsipial mövqe, dövlətimizin milli maraqlarını qətiyyətlə müdafiə etməsi beynəlxalq güclərə açıq və aydın mesaj oldu: Azərbaycanla yalnız bərabərhüquqlu əməkdaşlıq əsasında danışmaq mümkündür.**



Ermənistan tərəfi bunu nə qədər tez anlasa, bir o qədər az zərər görəcək. Əks halda bu təkcə onların özlərinə yox, prosesə zəmanət verən dövlətlərə - ilk növbədə ABŞ-yə və şəxsən Prezident Trampa açıq hörmətsizlik kimi qiymətləndiriləcək. Ermənistan məsələni yubatmamalı, süni maneələrlə prosesin qarşısını almamalıdır. Çünki artıq regionda oyun qaydaları dəyişib və bu qaydaları qalib lider - Prezident İlham Əliyev müəyyən edir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Tural İsmayılov söyləyib. O bildirib ki, Vaşinqtonda əldə olunmuş razılaşmalar Bayden-Blinken Administrasiyası, Makron və onun timsalında Fransanın, həmçinin Avropa İttifaqının illərlə həyata keçirdiyi təzyiqlərlə Azərbaycanı güzəştlərə məcbur etmə siyasətinin tam iflası oldu. İllərlə Azərbaycana qarşı təşkil olunan qarayaxma kampaniyaları, sanksiya hədələri, beynəlxalq media vasitəsilə təzyiqlər - heç biri nəticə vermədi. Prezident İlham Əliyev bir addım da geri çəkilmədi, əsl liderə xas olan iradə və siyasi uzaqgörənlik nümayiş etdirdi.

"Bu gün artıq reallıq dəyişib. Dünən Azərbaycanla ultimatum dili ilə danışmağa çalışanlar bu gün sülhün, təhlükəsizliyin və sabitliyin Bakıdan keçdiyini qəbul edirlər. Regionda uzunmüddətli sülhün yeganə təminatçısı kimi Prezident İlham Əliyevin mövqeyi dəyişməz və alternativsizdir. Vaşinqton görüşlərində Azərbaycanın mövqeyi yalnız müdafiə olunmadı, həm də qəbul edildi və rəsmən tanındı.

Sülh prosesi artıq kağız üzərində deyil, real siyasi müstəvidə formalaşır. Prezident İlham Əliyev bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərkən, digər tərəfdən regionda sabitlik və əməkdaşlıq mühitini yaradaraq regionumuzu yeni müharibələrdən qorudu. Bu, sadəcə, diplomatik uğur deyil, yüzlərlə, minlərlə gəncimizin həyatının qorunması deməkdir.

Regionu yeni qanlı toqquşmalara sürükləməyə çalışan qüvvələr var idi - radikal dairələr, revanşistlər, geosiyasi maraqların qurbanına çevrilmiş qruplar. Amma Azərbaycan bu oyunları pozdu. Liderin qətiyyəti, dövlətin gücü, xalqın birliyi bu fitnəkar niyyətləri alt-üst etdi. Prezident İlham Əliyev təkcə müharibədə qalib gəlmədi, həm də postmüharibə dövründə sülhü təmin edən lider kimi tarixə düşdü.

Əldə olunan uğurlar təkcə bu günün deyil, gələcəyin də zəmanətidir. Dövlətimizin başçısının iradəsi ilə Azərbaycan bölgədə etibarlı tərəfdaş, sülh və sabitlik adası kimi öz yerini daha da möhkəmləndirir. Bu isə həm region ölkələrinin, həm də beynəlxalq ictimaiyyətin maraqlarına xidmət edir. Sülh prosesində liderlik edən İlham Əliyevin strateji xətti - qələbə ilə nəticələnmiş müharibəni sülhə çevirmək missiyası uğurla icra olunur", - deyə T.İsmayılov vurğulayıb.

Politoloq diqqətə çatdırıb ki, Azərbaycan diplomatiyasının son illərdə qazandığı ardıcıl uğurların əsasında məhz Prezident İlham Əliyevin düzgün, prinsipial və milli maraqlara əsaslanan siyasəti dayanır. Vaşinqton səfəri bu uğurların növbəti zirvəsi oldu. Siyasi arenada qətiyyətli, diplomatik masada prinsipial, xalq qarşısında məsuliyyətli bir lider obrazı bu gün dünya üçün nümunəyə çevrilib.

Bu gün regionda dəyişən reallıqlar fonunda Ermənistan üçün seçim çox aydındır: ya sülh, ya da tam təcrid. Amma bu dəfə qərarı artıq Bakı diktə edir. Qalib Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız öz gələcəyini deyil, bütün regionun sabitlik modelini formalaşdırır. Bu model isə sülh, inkişaf və əməkdaşlıq üzərində qurulub.

Azərbaycan. - 2025.- 12 avqust (№167).- S.5.